Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



Azərbaycan sərhəd məsələsində yenə Ermənistana dərs verdi

Azərbaycan və Ermənistan arasında son günlərdə ən çox diqqət cəlb edən hadisə, heç şübhəsiz ki, sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı yaranan gərginlikdir. Əslində, bu gərginliyin yaranmasının əsas günahkarı Ermənistan özüdür.

İlk növbədə o baxımdan ki, Ermənistan burada yenə beynəlxalq hüquqa zidd davranış sərgiləyir, faktiki Azərbaycana məxsus ərazilərin sərhəd bölgüsü zamanı yenidən mənimsənilməsinə cəhd edir. Amma bu dəfə fakt qarşısında qaldığından, hansısa əməli addım ata bilmir.

Ermənilər Rusiyanı ittiham hədəfinə çevirir

Haqsız mövqedə olduğunu bilməsinə rəğmən, sərhədlərin müəyyən edilməsi prosesində Azərbaycanın əraziləri üzərində nəzarəti geri qaytarması fonunda Ermənistan indi beynəlxalq miqyasda hayküy salmağa can atır. İrəvan iddia edir ki, guya Azərbaycan Laçın rayonunda yerləşən Qaragöl istiqamətindən onun suveren ərazilərinə təcavüz edib. Erməni lobbisinin təsiri altında olan Fransa kimi ölkələr də məsələnin mahiyyətinə varmadan ermənilərin mövqeyini dəstəkləyir. Halbuki, sərhəd məsələlərinin kökündə duran səbəb Ermənistanın 2020-ci ilin noyabrınadək Azərbaycan ərazilərini işğal altında saxlaması olub. Məlum olduğu kimi, 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli bəyanata əsasən işğaldan azad edilmiş Laçın və Kəlbəcər rayonlarının Ermənistanla həmsərhəd bölgələrində çətin dağ relyefi quruluşuna və iqlim şəraitinə malik olan məntəqələrdə hava şəraitinin yaxşılaşması ilə Azərbaycan sərhəd qüvvələri ölkəmizə aid mövqelərdə yerləşdirilir. İrəvan iddia edir ki, bu zaman Azərbaycan onun sərhədlərini pozur. Ancaq reallıq odur ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərini pozan məhz Ermənistandır. İndiki halda Azərbaycan yalnız beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa edir. Rəsmi Bakı baş verənlərə münasibət bildirərkən qeyd edib ki, Ermənistanla sərhəd olan Azərbaycanın azad edilmiş bölgələrində hava şəraitinin mülayimləşməsi ilə əlaqədar Azərbaycan özünün ərazi bütövlüyü çərçivəsində həyata keçirilən sərhəd mühafizə sisteminin gücləndirilməsi işini davam etdirir. Bu proses Ermənistanla Azərbaycan arasındakı sərhəd xəttini təyin edən, tərəflərin hər birində olan xəritələr əsasında həyata keçirilir. Amma Ermənistan hələ də bu reallığı qəbul etmək istəmir. Hətta Ermənistanda baş nazir vəzifəsini icra edən Nikol Paşinyan sərhəddə baş verən bu hadisəni əvvəlcədən planlaşdırılmış hesab edir. Paşinyanın təşkil edilmiş və planlaşdırılmış adlandırdığı hadisə ilə bağlı bəyanatı kifayət qədər çoxmənalıdır. İrəvanda düşünürlər ki, hadisənin əsas günahkarı Rusiyadır. Ermənistanın "1in.am" nəşri yazır ki, sərhəddəki hadisənin Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı səfərindən dərhal sonra baş verməsi nəzərə alınaraq bu sual, ən azından, nəzəri olaraq təhlil edilməlidir: "Bu halda sual yaranır ki, Rusiya buna hansı cavabı verə bilər. Üstəlik, problem Ermənistanın əvəzinə Rusiyanın cavab verməli olduğu deyil. Vəziyyətə cavabdeh olan Ermənistan qurumlarının Bakının planlaşdırılmış şəkildə maneəsiz olaraq bunu həyata keçirməsinə necə imkan verdiyi özlüyündə əsas sualdır. Və yeri gəlmişkən, bu hal təşkilatçıların əhatə dairəsinin çoxtəbəqəliliyinin nəzərdən keçirilməsinin, ən azından, nəzəri imkanını aktuallaşdırır. Lakin Rusiya təkcə Ermənistan ərazisinin təhlükəsizliyi baxımından müəyyən öhdəliklərə sahib olan Ermənistanın təhlükəsizlik müttəfiqi kimi yox, eyni zamanda ilk növbədə bəlkə də 10 noyabr razılaşmasının "vasitəçi-cavabdehi" kimi cavab verməlidir. Rusiya sazişin həyata keçirilməsini təmin edə bilərmi? Bu mənada, faktiki olaraq ikinci faktın şahidi oluruq ki, bu da 10 noyabr razılaşmasının şəxsi məsuliyyəti ilə bağlı addımları atmaq üçün Rusiyanın ya qabiliyyətini, ya da istəyini şübhə altında qoyur. Əgər Rusiya özü bunların planlaşdırılmasında iştirak etmirsə və bunların həyata keçirilməsini təmin etmək məsələsində rol oynayırsa, bu hadisələr baş verməməli idi. Bütün hallarda Rusiya bacarmır və ya istəmir".

Bakı sərhəd məsələsində istədiyinə nail olacaq, Zəngəzur dəhlizi də açılacaq

Ümumiyyətlə, hazırda Ermənistanda belə bir fikir hakimdir ki, sərhədlərin müəyyən edilməsi məsələsində Azərbaycan istəyinə nail olacaq. Bu fonda o da vurğulanır ki, Azərbaycan istədiyi kimi Zəngəzur dəhlizini də açacaq. Ermənistanın "Lragir" nəşri yazır ki, dəhlizin açılmasını tələb edən əsas tərəflərdən biri də Rusiyadır: "Rusiyanın İrəvanı Zəngəzur dəhlizini "könüllü" şəkildə açmağa məcbur etdiyi açıqdır. Bu məqsədlə diversantlar məsələsindən tutmuş müxtəlif təhdidlərə qədər bütün metodlar istifadə olunur. Eyni zamanda, Moskvanın mümkün siyasi təşəbbüslərin qarşısını almaq üçün Ermənistana qarşı "dəhliz" məsələsindən istifadə etməsi diqqətçəkəndir. Moskva dəhlizə nəzarəti ona təhvil verməyi təklif edir ki, bu da Ermənistanın suverenliyinin itirilməsidir.

Üçtərəfli bəyanatın 9-cu bəndi isə aşağıdakını müəyyənləşdirir: "9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək". İrəvan rəsmi olaraq bildirir ki, istənilən kommunikasiya yalnız Ermənistanın səlahiyyəti altında olmalıdır. Əgər Ermənistan dəhlizi "könüllü" şəkildə açmağa razı olmasa nə olacaq? Yoxsa bunu artıq Ermənistanın Zəngəzur vilayətində dayaq məntəqələrə yerləşdirilməsinə icazə verilmiş rus hərbçilər edəcək?. Görünür ki, hə. Ermənistanın buna müqavimət göstərmək imkanları yoxdur".

Ermənistanın keçmiş müdafiə nazirinin müavini Artak Zakaryan da bildirib ki, Azərbaycan istəyinə çatacaq. Çünki güclüdür və Ermənistanı heç kim müdafiə etmir: "Beynəlxalq strukturlara müraciət etmək və bu problemi beynəlmiləlləşdirmək təbii olaraq məntiqə malikdir. Lakin problem ondadır ki, beynəlxalq ictimaiyyət Ermənistanın heç nə etmədiyini və bütün problemin beynəlxalq sahəyə köçdüyünü gördükdə heç nə etməyəcək. Bu o deməkdir ki, onlar sadəcə bəyanatlardan və sakitlik, siyasi yolla problemləri həll etmək çağırışlarından başqa heç nə etməyəcəklər". O qeyd edib ki, Ermənistanın üzvü olduğu KTMT də bəyanatlardan başqa heç bir şey etməyəcək: "KTMT bəyanatlardan başqa heç bir şey etməyəcək, siz belarus və ya tacik əsgərin gəlib azərbaycanlıları Qaragölün ərazisindən çıxarmasını istəyirsiniz? Bunu əbəs yerə gözləməyin". Belə vəziyyətdə Azərbaycanın məqsədinə çatmasının qaçılmaz olması ermənilər tərəfindən də qəbul edilir.

Bakı yenidən İrəvanı yerində oturtdu

Proseslərin təhlili onu da göstərir ki, bu gün Ermənista hansısa formada Azərbaycana müqavimət göstərmək iqtidarında deyil. Erməni mediası yazır ki, 44 günlük müharibədən sonra Qaragöl istiqamətində baş verənlər də bunun təsdiqi oldu.

Qeyd edək ki, Qaragöl istiqamətində yaranmış qalmaqalla bağlı Azərbaycan və Ermənistan rəsmiləri arasında davam edən danışıqlar başa çatıb. Artıq müxtəlif erməni mənbələr razılaşma ilə bağlı bəzi detalları da yayımlayır. Burada qeyd edilir ki, Azərbaycan Qaragöl istiqamətində irəlilədiyi 3,5 kilometr məsafədən 1,5 kilometrə qədər geri çəkilir. Amma o şərtlə ki, 1,5 kilometr əraziyə sərhəd xətti və neytral bölgə də daxil ediləcək, bu ərazi boyunca Azərbaycan və Ermənistan hər biri 4 post quracaq. Postlarda ağır zirehli texnika olmayacaq, sərhəddə yalnız yüngül silahlarla təchiz olunmuş nizami ordu dayanacaq. Vardanes və Geqarkunik istiqamətində isə sərhədlə bağlı hələlik razılıq olmayıb. Razılaşma ilə bağlı "Qraparak" nəşri olduqca maraqlı şərh yazıb: "Azərbaycan hər dəfə 3 kilometr irəliləsə, sonra 1 kilometr geri çəkilsə, Ermənistandan heç nə qalmayacaq". Zəngəzurun keçmiş başçısı, "Dirçələn Ermənistan" Partiyasının lideri Vaqe Akobyan da bu fonda maraqlı açıqlama verib. Onun sözlərinə görə, danışıqların nəticəsində Qaragölə bitişik ərazidə bərabər qüvvələrin qalması barədə razılıq əldə edilib: "Azərbaycanlıların dörd mövqeyi, Ermənistan tərəfinin də dörd mövqeyi olacaq. Yeri gəlmişkən, bu gün mövcud olan yaxşı və ya pis hər şey və bu razılaşma sülhməramlı qüvvələrin komandanı Rüstəm Muradovun səyləri ilə əldə edildi. İndi belə çıxır ki, Azərbaycan ordusu nəinki buradan çıxmadı, əksinə, onlarda artıq postlar və əsgərlər də olacaq!". Partiya rəhbəri bu razılaşmanı Ermənistan tarixi üçün "növbəti biabırçı razılaşma" adlandırıb.

Ermənistan müxalifətinin nümayəndələri sərhəd insidentini həm də Nikol Paşinyanın oyunu kimi təqdim edir. "Qarabağ klanı"nın üzvü Qarnik Arakelyan bu fonda bildirib ki, Zəngəzur vilayətində sərhəd demarkasiya və delimitasiyasının bu səviyyədə gərginləşdirilməsi siyasi oyundur və hədəf seçkiləri təxirə salmaqdır. O iddia edib ki, Nikol Paşinyan gərginliyi artıraraq, hərbi vəziyyət elan etməyə çalışır. Erməni sosial şəbəkə istifadəçiləri də, Azərbaycan ordusu ilə sakit müzakirələrin aparılmasına baxmayaraq, məsələnin bu dərəcədə şişirdilməsini Nikol Paşinyanın seçkiyə hesablanmış oyunu adlandırır. İddialar sırasında o da bildirilir ki, sərhəddəki gərginlik qısa müddətdə sakitləşərsə və Paşinyan istəyinə nail olmazsa, baş nazir səlahiyyətlərini icra edən Paşinyan "B planı"na keçəcək və pandemiyanı bəhanə edəcək. Belə ki, koronavirusa yoluxma sayı şişirdilərək qapanmalara gediləcək. Bildirilir ki, ən yaxşı halda seçkilərdə məhdudiyyətlər tətbiq ediləcək, ən pis halda isə seçkilər təxirə salınacaq.

Tahir TAĞIYEV

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.